# Mirzə Qədim İrəvaninin adı bu küçəyə verildi




Qərbi Azərbaycan İcmasının Bakıda əsas qərargahının yerləşdiyi küçənin adı dəyişdirilib.

Yeniazerbaycan.com xəbər verir ki, küçəyə Mirzə Qədim İrəvaninin adı verilib. Küçə indiyədək Gülnarə Qədimbəyovanın adını daşıyırdı.

Xatırladaq ki, Mirzə Qədim İrəvani 4 dekabr 1825-ci ildə anadan olub. O, Azərbaycan portretçisi və ornamentalist rəssamıdır. Azərbaycan panel rəssamlığının əsasını qoyub, yaradıcılığı Azərbaycanın yeni dövr təsviri sənətində vacib dəyişikliklə yadda qalıb.

Mirzə Qədim İrəvani Azərbaycan rəngkarlığının təşəkkülündə əhəmiyyətli rol oynamış böyük sənətkarlardandır. O, bir çox sahələri əhatə edən yaradıcılığında klassik Şərq miniatürü və xalq sənətinin zəngin ənənələrini Avropa realist boyakarlığının nailiyyətləri ilə ahəngdar şəkildə birləşdirərək orijinal üslub formalaşdırmış, Azərbaycan təsviri sənəti tarixində yeni mərhələnin başlanğıcını qoymuşdur. Rəssamın zərif koloritli naxışlarla və ornamentli şəbəkələrlə işlənmiş, dərin bədii-estetik təsir gücünə malik tabloları, monumental portret və kompozisiyaları kamil sənət nümunələri kimi bu gün də yüksək dəyərini qoruyub saxlayır.

Mirzə Qədim İrəvani 1875-ci ildə vəfat edib. Bu il rəssamın 200 illik yubileyidir.

Prezident İlham Əliyev fevralın 14-də Mirzə Qədim İrəvaninin 200 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.




Yeni Azərbaycan.- 2025.- 12 aprel, №60.- S.4.